# YARIMÇIQ QIRILMIŞ HEYKƏLTƏRAŞ ÖMRÜ

## *Şəhid Samir Kaçayevin yaradıcılıq portreti*



**Ziyadxan Əliyev**
*Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru*

Azərbaycan Rəssamlıq Akademiyası yəqin ki, mövcud olduğu dövrdə aprelin 4-də müşahidə olunan qeyri-adi izdiham görməmişdi. Təhsil ocağının klubunda iynə atsan yerə düşməzdi. Hamı Akademiyanın magistr pilləsinə qəbul olunandan sonra Vətənə oğul borcunu qaytarmağa yollanan və iki gün əvvəl cəbhədə şəhid olan Samir Kaçayevi anma mərasiminə toplanmışdı. Təhsil ocağının rektoru, akademik Ömər Eldarovun az sonra **İDEAL TƏLƏBƏ** kimi dəyərləndirəcəyi Samir Kaçayevin işığına... Klubda göstərilən videoçarxın hər kadrının göz yaşları ilə qarşılanması təbii idi. Ekranda kadrarxası səslənən kədərli “Şəhidin arzusu” mahnısının hər misrasının bura toplaşanları kövrəltməsini, göz yaşına qərq etməsini görən göz gərəkdi... Hamı ağlayırdı... tələbə yoldaşları da, onun gələcəyinə böyük ümid bəsləyən müəllimləri də... Gözlərdən, yanaqlardan axan göz yaşlarının müşayiəti ilə müğənni sanki Samirin taleyi-vəsiyyətini oxuyurdu....



*Mənim xəyallarım vardır,*
*Mənim öz dünyam vardır,*
*Mənim sevdiyim vardır,*
*Mənim sevgilim vardır.*
*Ana, mən şəhid oldum!*
*Yerim gözəldir, təki ağlama...*
*Canım, sevgilim, bağışla məni,*
*Səni tək qoydum...*
*Vətən, vətən sağ olsun!*
*Vətən, vətən sağ olsun!*

*Mənim çox deyiləcək sözlərim vardır,*
*Ürəyimdə qaldı...*
*Mənim bir Vətənim var:*
*Azərbaycan, doğma diyarım!*
*Ana, mən şəhid oldum!*
*Yerim gözəldir, təki ağlama...*
*Canım, sevgilim, bağışla məni,*
*Səni tək qoydum...*
*Vətən, vətən sağ olsun!*
*Vətən, vətən sağ olsun!*

Salona toplaşanların gözləri ekranda olsa da, hər kəs həmin anlarda yaddaşını “oyatmağa” çalışırdı... Çünki, Ana torpağın iki gün əvvəl “yorğanına” büküb sinəsinə çəkdiyi Samiri salondakılara xatırlada biləcək çox şeylər vardı... şirin xatirələrə çevrilən hadisələr, zaman-zaman dilə gətirilən sözlər-deyimlər, edilən hərəkətlər və bir də gözünün nurunu, əllərinin və ürəyinin hərarətini daşıyan əsərlər...

Ölüm nə qədər qaçılmaz olsa da, bütün yaşlarda gözlənilməzdir. Onun 22 yaşlı gənci, gələcək uğurları indidən duyulan yaradıcı bir insanı “yaxalaması”nı, bununla da onu sevənləri, ata-anası Ziyəddin və Əminəni, eləcə də bacısı Səbinəni yandırıb-yaxmasını məgər “Allah bilən məsləhətdir!” təsəllisi ilə ovutmaq olarmı?

Samirin şəhidlik zirvəsinə yüksəlməsi ilə istər-istəməz onun yaradıcı potensialına nəzər yetirməli olduq və bir daha inandıq ki, nə qeyri-yaradıcı, nə də sənətkar ömrünün mənası və dəyəri onun uzunluğu ilə ölçülmür. Zamanında dərs dediyim və az-çox tanıdığım Samirin yaradıcı sorağını onun ixtisas müəllimləri olan əməkdar rəssam Zeynalabdin İsgəndərov və əməkdar incəsənət xadimi Akif Əsgərovdan, eləcə də magistr pilləsində ona rəhbərlik edəcək xalq rəssamı Natiq Əliyevdən aldım. Üçü də “Görünən dağa nə bələdçi?” - deyib əllərini Akademiyanın həyatında ucaldılan abidəyə uzatdılar. Orada nəyin mövcudluğundan artıq xəbərdar olduğumdan, onların hökmündəki çoxqatlı mənanı dərhal başa düşdüm...

Samirlə bağlı acı xəbərin alınmasından sonra müəllimləri və tələbə yoldaşları onun Akademiyanın bakalavr pilləsini bitirərkən işlədiyi diplom işini təhsil ocağının həyətində qoymağa qərar veriblər. Qənaətimizcə, yaşıllıq üzərində qərarlaşan “Ögüst Rodenin abidəsi” bu gün həm yüksək yaradıcılıq nümunəsinin dəyərləndirilməsi, həm də şəhidlik kimi əlçatmaz bir zirvənin sənətkar tərəfindən fəthinin mümkünlüyünü həmkarlarına nümayiş etdirən tələbənin xatirəsini gələcəyə daşımaq istəyinin göstəricisidir...

Anım mərasimində müəllimləri bildirdilər ki, Samirin diplom işi üçün Ö.Rodenin obrazına müraciət etməsi əsl yaradıcı cəsarət nümunəsi idi. Belə ki, çox az-az sənətkarlar bu vaxta qədər XIX-XX əsr Avropa heykəltəraşlığına yeni nəfəs gətirən bu fransız tişə ustasının obrazına müraciət etmişdi. Odur ki, onun bu mürəkkəb tutumlu seçimi zamanında müəllimlərində müəyyən “narahatçılıq” yaratsa da, onlar Samirin bu işin də öhdəsindən layiqincə gələcəyinə inandırdılar. 2015-ci ilin yayında baş tutan diplom müdafiəsində bu əsərlə tanışlıq hamıda xoş təəssürat yaratdı, gənc yaradıcının korifey həmkarının xatirəsinə bədii ehtiramı yüksək dəyərləndirildi...

Bu gün Samir Kaçayevdən yadigar qalan və onun yaradıcı kamilliyini sərgiləyən əsərləri təkcə diplom işi deyil. Onun atası Ziyəddinin uşaqlıq vaxtı aldığı plastlindən başlayan heykəltəraşlıq sevgisi ilə Samirin professionallığaqədərki dövrü əhatə edən “bədii saxlanc”da çoxsaylı plastika nümunələri qalmaqdadır. Onların hər birində gənc heykəltəraşın forma-biçim və bədii şərh orijinallığı ilə yanaşı düşündürücülüyə səy göstərməsi də duyulandır. Kompozisiyanın məna-məzmun yükünün dərinliyinə xüsusi əhəmiyyət verməsi onu öz yaşıdlarından fərqləndirirdi, desək, yanılmarıq. Samir bu yöndə daha çox Rodeni özünə nümunə sayırdı. Samirin 2015-ci ildə keçirilən “Tolerant Azərbaycan gənci” müsabiqəsində təqdim etdiyi əsərin fikir orijinallığına görə xüsusi mükafat alması da mütəxəssislərin onun yaradıcılığındakı bu bədii-fəlsəfi məziyyəti dəyərləndirmələrinin nəticəsi idi. Doğrudan da? onun



**Samir Kaçayev**

“Tarazlıq” kompozisiyasında dünyamızın çağdaş durumuna çox sərt “bədii güzgü” tutulub və bu gün dünyada ədalət tərəzisini əyməyə çalışanların ifşası yaddaqalan biçimdə gerçəkləşib.

Əgər Samirin bizə yadigar qoyub getdiyi plastika nümunələrinin bədii məziyyətlərini dəyərləndirməli olsaq, onda onun bir qisim işlərində tələbə-heykəltəraş nəfəsini duyulduğunu söyləmək olar. “Pinəçi”, “Sarban” və “Gənc heykəltəraş” əsərlərində onun tətbiq etdiyi bədii şərh daha çox realist-gerçəkçi tutumludur. Elə “Ögüst Roden”də də gənc tişə ustasının plastik tutumun “ağırlığı”nı qəhrəmanının coşqunluğunu özündə hifz edən yapma oynaqlığı ilə “yüngülləşdirmə”yə çalışmasını görmək mümkündür. Əksinə, yeni axtarışlarının nəticəsi olan “Tarazlıq”, “Gənclik” və “Balerina” əsərləri onun daha müstəqil və orijinal bədii tapıntıları ilə diqqət çəkir. Bu nümunələrin səciyyəvi xüsusiyyəti Samirin duyulası stilizədən və rənglərdən məntiqlə istifadə etməsidir. Onun “Balerina”da kürsü ilə fiqur arasında tapdığı maraqlı əlaqə, fiqurun açıq hissələrinin qızılı, geyiminsə yaşımtıl çalarlarda təqdimatı ovqatyaradıcıdır desək, yanılmarıq...

O, adlarını çəkdiyimiz əsərlərini dostları Zamin və Abdulla əmanət qoyub getmişdi. İndiyə qədər qayğı ilə qorunan və onu görənlərdə təzadlı ovqat yaradan bu plastik nümunələr təbii ki, ictimaiyyətin görə bilməyəcəyi hansısa saxlancın malı ola bilməz. Belə ki, yaşından asılı olmayaraq hər bir sənətkarın onu yaşadacaq ömrü məhz dünyasını dəyişməsindən sonra başlayır. Odur ki, Samirdən yadigar qalan bədii irs doğulduğu Şamaxı rayonun və təhsil aldığı Rəssamlıq Akademiyasının muzeylərində, eləcə də Milli Azərbaycan İncəsənəti Muzeyində qorunmalı, nümayiş olunmalıdır. Samir Kaçayevin yarımçıq qırılmış heykəltəraş ömrünün yaradıcı-vətənpərvər dəyərinin gələcək nəsillərə ötürülməsi üçün...



Gənc heykəltəraş



Pinəçi



Tarazlıq



Ö.Roden